# Filmoqrafiya

**BƏDİİ FİLMLƏR (Video görüntülər)**



**XOCA (FİLM. 2012)**

“Xoca” filmi faktlar əsasında lentə alınıb. Filmin rejissoru və ssenari müəllifi Vahid Mustafayevdir. Baş prodüsser Mir Şahin, prodüsser Eyyub Danişvər, bəstəkar Yaşar Baxış, səs rejissoru Məsud Behnam, operator Afşin Əlizadə, montaj edən isə Elşad Rəhimovdur. Filmdə hadisələr Bakıda və Xocalıda paralel şəkildə baş verir
5 seriyadan ibarət rəngli bədii filmdir.

https://www.youtube.com/watch?v=rExUBnGK7_c



**GÜNƏŞİN BATDIĞI YER (FİLM, 2012)**

Film erməni vəhşiliyi nəicəsində xüsusi amansızlıqla qətlə yetirilmiş 613 nəfərdən çox Xocalı sakininin taleyindən, hadisələrin mahiyyətindən, faktlardan və baş vermiş soyqırımından bəhs edir.
Film hadisələr zamanı öz doğma övladını boğmağa məcbur olmuş bir ananın dəhşətli hekayəsinin fonunda təqdim edilir.

Ekran əsəri Xocalı soyqırımı haqqında faktları tam əks etdirməklə əslində əsl həqiqət haqqında toplu şəklində təqdim edilib. Film ingilis, rus, fars və erməni dillərinə tərcümə edilib və nümayiş etdirilib. Bədii səhnələrdə aktrisa Aybəniz Əhmədova çəkilib.

Filmin üzərində işləyənlər: Ssenari müəllifi Eldar İsgəndərzadə, rejissor Elşən Zeynallı, operator Ramin Başirov, səs operatoru Tariyel Babayev, filmi səsləndirdi Ceyhun Səfərov, redaktor Azər Xəlilov, montajçı Tariyel Firudinoğlu, filmin prodüseri Röya Əliyeva.



**QIRMIZI QAR (FİLM, 1998)**

Filmdə Qarabağ müharibəsində ermə-nilərə əsir düşmüş şəxslərin başına gətirilən işgəncələr əks etdirilir.

**Film üzərində işləyənlər**: ssenari müəllifi Ağarəhim Rəhimov, quruluşçu rejissor Mərahim Fərzəlibəyov, quru-luşçu operator İzzətulla Əzizov, rəssam Elbay Qasımzadə bəstəkar Cavanşir Quliyev, redaktor Akif Abbasov (titrlərdə yoxdur)
Filmin direktoru: Cavanşir Təhməzovdu.



**Rollarda:** Məleykə Əsədova, Hüsniyyə Mürvətova, İftixar Piriyev, Bürcəli Əsgərov, Səmayə Sadıqova, Kamal Xudaverdiyev, Lətifə Əliyeva, Sabir Məmmədov- Əsgər, İradə Ağasıbəyli, Rövşən Kərimduxt, Xanımbacı Həsənova — Əsmər, Mətləb Abdullayev— Suren, Ələsgər Məmmədoğlu — erməni, Xəyyam Məmmədov.

https://yandex.ru/video/preview/12304186605678242 3

**HARAY (FİLM, 1993)** Kinolent yazıçı Nüşabə Məmmədovanın "Haray" pyesinin motivləri əsasında çəkilmişdir.
Film Xocalı faciəsi haqqındadır. Burada iki yeniyetmənin — qardaşla (Tacir Əzizov) bacının (Nüşabə Abdullayeva) düşmən əhatəsindən çıxmaq üçün olmazın əzablara qatlaşmalarından danışılır. Ermənilərin azərbaycanlı əsirlərə verdikləri olmazın əzablara şahid olan iki yeniyetmə, çıxış yolunu özlərini dağdan atmaqda görürlər.




**Film üzərində işləyənlər**:

**Ssenari müəllifi:**
Nüşabə Məmmədova, Eldəniz Quliyev
**Quruluşçu rejissor:** Oruc Qurbanov
**Quruluşçu operator:** Rövşən Quliyev
**Quruluşçu rəssam:** Asif Məmmədov
**Bəstəkar:** Qalib Məmmədov
**Mahnı ifa edən:** Brilliant Dadaşova, Azər Zeynalov
**Redaktor:** Ziyafət Abbasov
**Filmin direktoru:** Əlfi Şükürov və b.

**Rollarda:**

Nüşabə Abdullayeva — bacı
Tacir Əzizov — qardaş
Pərvanə Qurbanova
Xələf Cəfərov
Dokoşto Erneşto — zənci əsgər
Səidə Quliyeva — ana və b.
https://yandex.ru/video/preview/4145549535749914124

## SƏNƏDLİ FİLMLƏR

“XOCALI DÖNGƏSİ”







https://yandex.ru/video/preview/15051446914410560333



**SONSUZ DƏHLİZ (FİLM, 2015**) (ing. Endless Corridor) - litvalı rejissor Andreas Brokasın Xocalı qırğınından söz açan sənədli filmi Leyla Əliyevanın təşəbbüsü ilə “Xocalıya ədalət!” təbliğat kampaniyası çərçivəsində hazırlanmışdır. "Sonsuz dəhliz" sənədli filmi prodüserlər Aleksandras Brokas (Litva) və nüfuzlu "Grammy Award" mükafatçısı Cerald Rafşun (ABŞ) tərəfindən çəkilib. Film britaniyalı aktyor, BAFTA mükafatçısı Ceremi Ayronz tərəfindən səsləndirilib.

***Məzmunu:*** Film litvalı jurnalist Riçard Lapaitisin Xocalıya səyahəti kimi təqdim olunur. O, bu filmdə Dağlıq Qarabağ münaqişəsini və qanlı soyqırımı aktını işıqlandırıb. Xocalıda kütləvi qətliamdan sağ çıxmış insanlarla görüşərək ermənilərin atəşi altındakı “sonsuz dəhliz”də özünə nicat yolu axtararkən yaxınlarını itirənlərin ürəkdağlayan hekayələrini dinləyib. Filmin müəllifi bu soyqırımının təşkilatçıları və səbəbkarları — erməni hərbi komandirləri ilə də söhbət edib. Filmin süjeti real hadisələr, bu cəhənnəm əzabını yaşamış, kütləvi qırğını öz gözü ilə görmüş insanların xatirələri əsasında qurulub.



**Mükafatları:**

- “Ən yaxşı montaj olunmuş sənədli film” nominasiyası — 2015-ci il Milan Beynəlxalq Film Festivalı ("Milan IFF 2015 Film Festivalı")
- "Best of Show" mükafatı — "Accolade Qlobal Film Competition" müsabiqəsi (ABŞ-2015)
- "Ən yaxşı sənədli film" — Madrid Tenerife Beynəlxalq Film Festivalı (2015)[4][13]
- "Ən yaxşı sənədli film rejissoru" (Aleksandras Brokası) — Madrid Tenerife Beynəlxalq Film Festivalı (2015)
- “Global Film Awards” mükafatı
https://www.youtube.com/watch?v=eIgoxF32BkE



**XOCALI: BİR MİLLƏTİN KƏDƏRİ (FİLM, 2020)**

Filmin ideya müəllifi və direktoru Nurəddin Mehdiyev, ssenari müəllifi Birləşmiş Krallıqdan olan araşdırmaçı jurnalist İan Piert, məsləhətçiləri-Milli Məclisin deputatı Elman Məmmədov, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa, tarixçi–alim Ramin Əlizadə və Natıq Alışov, quruluşçu rejissoru Teymur Nəcəfzadə, operatorları Pərviz Əliyev və Cahid Əliyevdir. Filmi Azərbaycan dilində Elşən Rüstəmov səsləndirib.

Film Azərbaycanda Xocalının bütün tarixi dövrlərini və 26 fevral 1992-ci il soyqırımını video-arxiv sənədləri və muzey materialları ilə əks etdirən modern formatda hazırlanmış real tarixdir. 5 dildə - Azərbaycan, ingilis, rus, türk və fransız dillərinə tərcümə olunub.

https://www.youtube.com/watch?v=z_NsLzfkZaI

**XOCALI SOYQIRIMI QAN YADDAŞIMIZ**

Xocalı soyqırımı insanlığa qarşı törədilmiş dəhşətl
cinayətdir. Xocalıya ədalət!
Hər zülmət gecənin mütləq bir aydın sabahı var!
Quruluşçu rejissor - Şəhriyar Zeyni
İdeya müəllifi və ssenarist - Elvin İbra
Rejissor asissenti - Nuranə Dadaşova
Əsas rol - Bəhruz Vaqif oğlu və b.
https://www.youtube.com/watch?v=t5pvlusIU7c

“İRƏLİ” İCTİMAİ BİRLİYİ TƏRƏFİNDƏN ÇƏKİLƏN “BÖYÜMƏYƏN UŞAQLAR” FİLMİ




https://www.youtube.com/watch?v=TWWSIrfSy9o
XOCALI NİŞANƏSİ
https://www.youtube.com/watch?v=8trqglG3dfQ